7. Vinareva L.A., Yanson V.V. İngilis İdiomları = İngilis İdiomları. Kazan: IP Logos-M MMC, 2008, 384 s.
8. Qak V.G. Metafora: universal və spesifik. Dildə və mətndə metafora. M.: Nauka, 1988.s.11-26.
9. Qlazunova O.İ. Metaforik çevrilmələrin məntiqi. – Sankt-Peterburq: Filol. Sankt-Peterburq Dövlət Universitetinin fakültəsi, 2000,190 s.
10. Jevako G.A., Şubina L.V. Rus və ingilis dillərində frazeoloji vahidlərin səciyyələndirilməsinin taksonomik əsasları. Universitet oxunuşları - 2006. Pyatiqor. dövlət dilçi. univ. Pyatiqorsk, 2006,s. 38-44.
11. Kabanova İ.N. İngilis dilinin leksikologiyasının əsasları. Ed. 2, əlavə edin. - Aşağı Novqorod: NGLU, 2012, 168 s.

## AZƏRBAYCANDA SAHİBKARLIĞIN STRATEJİ İNKİŞAF HƏDƏFLƏRİ

*Hüseynova E.Y., i.f.d., dosent*
*Mingəçevir Dövlət Universiteti*

Sahibkarlıq fəaliyyəti çox mürəkkəb və geniş sahəli fəaliyyət olaraq mürəkkəb istehsal-təşkilat-təsərrüfat sistemini əhatə edir. Onun əsas vəzifəsi məhsul istehsal etmək və xidmət göstərməkdir. Bu gün Azərbaycanda sahibkarlıq fəaliyyətinin nəzəri və təcrübi məsələləri xüsusi əhəmiyyət kəsb edir.

Azərbaycanda müasir sahibkarlığın inkişafı XX əsrin 90-cı illərindən başlamışdır. Həmin dövrdə ümummilli lider Heydər Əliyev demokratik həyat tərzinin diktə etdiyi gerçəklik kimi bazar iqtisadiyyatı prinsiplərinə sadiq qalaraq Azərbaycanın yeni dövr üçün prioritetlərini müəyyənləşdirmiş və ölkənin iqtisadi siyasətinin təməlini qoymuşdur.

Azərbaycanda 90-cı illərin ortalarından başlayaraq ulu öndər Heydər Əliyevin rəhbərliyi ilə iqtisadiyyatın müxtəlif sahələrində həyata keçirilən islahatlarla planlı iqtisadi modeldən liberal bazar iqtisadiyyatına keçid təmin edilib, dünyada ən yüksək inkişaf templəri ilə sənaye, xidmət və kənd təsərrüfatı sahələrində real irəliləyişə nail olunub. Ulu Öndər ölkəmizdə sahibkarlığın memarı, yaradıcısı, qurucusu və dinamik inkişafının tənzimləyicisi kimi yaddaşlara əbədi həkk olunub. Özünün böyük həyat təcrübəsinə, nüfuzuna, iradəsinə, ən mürəkkəb situasiyalarda dəqiq qərarlar çıxarmaq bacarığına görə demokratik cəmiyyətə keçid mexanizmini müəyyənləşdirərək bu istiqamətdə ardıcıl və sistemli siyasət həyata keçirib. Çünki "İqtisadiyyatı güclü olan dövlət hər şeyə qadirdir!" - prinsipinə əsaslanan Ulu Öndərin fəaliyyətinin ən mühüm, strateji əhəmiyyət daşıyan istiqamətlərindən biri bazar münasibətlərinə keçidin tələblərinə uyğun iqtisadi siyasəti reallaşdırmaq, ölkə iqtisadiyyatını böhrandan qurtarıb dirçəliş, ardınca isə inkişaf yoluna çıxarmaq idi. Bu, Ulu Öndər Heydər Əliyevin yeni Azərbaycanın inkişaf modeli idi. Təsadüfi deyildir ki, Azərbaycanın yeni neft strategiyası bu baxımdan atılmış ilk və həyati əhəmiyyətli addım olmuşdur. Ulu Öndərdən sonra bu siyasəti inamla davam etdirən Prezident

İlham Əliyevin rəhbərliyi altında hazırda Azərbaycanın hərtərəfli inkişafında yeni mərhələ yaşanır.

Hazırda Prezident İlham Əliyevin rəhbərliyi altında Azərbaycanın inkişafında yeni mərhələ yaşanır. Dövlət başçısının həyata keçirdiyi iqtisadi siyasətin əsas xarakterik xüsusiyyətləri onun sosialyönümlü olması, habelə bütün problemlərin həllində iqtisadi aspektin mövcudluğunun ön plana çəkilməsidir. Dövlət proqramlarının, fərman və sərəncamların icrası ölkədə gedən iqtisadi inkişafın sürətləndirilməsini uğurla təmin edir, tərəqqi prosesində özəl sektorun payını və rolunu artırmaqla sahibkarlığın inkişafına güclü təkan verir.

Bu gün Azərbaycan biznes mühitinin əlverişliliyi, sahibkarların rahat işləməsi üçün ən çox islahatlar aparan ölkələrdən biridir. Postneft iqtisadiyyatının qurulması, idxaldan asılılığın azaldılması, ölkənin ixrac potensialının yüksəldilməsi üçün rəqabətqabiliyyətli mal və məhsulların istehsal olunması məqsədilə hökumət sahibkarlar üçün böyük imkanlar yaradıb. Ölkədə qeyri-neft sektorunun, xüsusilə regionlarda kiçik və orta sahibkarlığın inkişafı istiqamətində mühüm işlər görülüb.

Ölkədə həyata keçirilən iqtisadi siyasət sahibkarlığın inkişafının sürətləndirilməsinə, ölkənin sosial-iqtisadi problemlərinin həllində sahibkarlığın rolunun gücləndirilməsinə, bu istiqamətdə dövlət qayğısının artırılmasına və ən əsası mövcud potensialın reallaşdırılmasına yönəlmişdir. Bu məqsədlə qanunvericilik bazasının təkmilləşdirilməsi, bürokratik maneələrin aradan qaldırılması, maliyyə dəstəyinin göstərilməsi və digər sahələrdə mühüm əhəmiyyətli addımlar atılmışdır.

Son illərdə Azərbaycan iqtisadiyyatının şaxələndirilməsi neft sektorundan asılılığın azalması, yeni istehsal müəssisələrinin istifadəyə verilməsi, işsizliyin aradan qaldırılması və sair sosial yönümlü problemlərin həlli sahibkarlığın inkişafı ilə əhəmiyyətli dərəcədə bağlıdır.

Ölkəmiz 2030-cu ildək olan dövrü əhatə edən yeni strateji mərhələyə daxil olub. Bu mərhələdə respublikamızda kiçik və orta biznesin daha da dinamik inkişafı hədəflənib. Azərbaycan Prezidenti İlham Əliyevin 6 dekabr 2016-cı il tarixli fərmanı və “Azərbaycan Respublikasında kiçik və orta sahibkarlıq səviyyəsində istehlak mallarının istehsalına dair Strateji Yol Xəritəsi” və 2021-ci il 2 fevral tarixli müvafiq Sərəncamı ilə “Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər” sənədi təsdiqlənib. Sənədlərə əsasən növbəti onillikdə ölkənin sosial-iqtisadi inkişafına dair beş Milli Prioritetin reallaşdırılması hədəflənib. Burada, həmçinin özəl sektorun perspektiv inkişafını özündə ehtiva edən bir sıra müddəalar öz əksini tapıb.

Azərbaycanda kiçik və orta sahibkarlığın (KOS-un) inkişafı iqtisadiyyatın diversifikasiyası, rəqabətqabiliyyətliliyinin artırılması, məşğulluğun təmin edilməsi, istehlak mallarına olan tələbatın yerli resurslar hesabına ödənilməsi və iqtisadi inkişafın təmin edilməsi baxımından xüsusi əhəmiyyət kəsb edir. Belə ki, inkişaf etmiş ölkələrdə KOS-un ÜDM və məşğulluqdakı xüsusi çəkisinə nəzər saldıqda belə qənaətə gəlmək olur ki, Azərbaycanda da davamlı iqtisadi inkişafın təmin edilməsində KOS-un əsas hərəkətverici amilə çevrilməsi qarşıda duran əsas çağırışlardandır.

“Azərbaycan Respublikasında kiçik və orta sahibkarlıq səviyyəsində istehlak mallarının istehsalına dair Strateji Yol Xəritəsi” ölkə iqtisadiyyatında rəqabətqabiliyyətliliyin, inklüzivliyin və dayanıqlılığın təmin olunması istiqamətində bütün ölkə üzrə həyata keçirilən tədbirlərin bir hissəsi olaraq hazırlanmışdır.

Dünyanın inkişaf etmiş ölkələrinin əksəriyyətində KOS subyektləri iqtisadi artımın və məşğulluğun təmin edilməsində aparıcı mövqeyə malikdirlər. ABŞ və Avropa İttifaqı ölkələri kimi ölkələr KOS-un inkişafı hesabına əhəmiyyətli iqtisadi artıma nail olmuşdur. Belə ki, Avropa İttifaqına daxil olan ölkələrdə müəssisələrin 99 faizini kiçik və orta müəssisələr təşkil edir ki, bunların da məşğulluqda və ÜDM-də payı 60 faizdən çoxdur.

İnkişaf etməkdə olan ölkələrdə orta həcmli müəssisələr məşğulluğun əsas təminatçısı qismində çıxış edir. KOS sahəsində qlobal trendlərdən biri də kiçik müəssisələrin dayanıqlılığını təmin etməklə onların orta müəssisələr səviyyəsinə çatdırılması cəhdləridir. Bununla da müəssisələrin dayanıqlılıq və beləliklə, rəqabətqabiliyyətlilik göstəricilərinin yaxşılaşdırılmasına nail olmaq hədəflənir.

Azərbaycanda KOS-un və bütövlükdə ölkə iqtisadiyyatının inkişaf etdirilməsi üçün güclü potensial və geniş imkanlar mövcuddur. Bunun üçün ümumi biznes mühitinin yaxşılaşdırılması, maliyyə resurslarına çıxış imkanlarının daha sərfəli və effektiv təşkil edilməsi, kiçik və orta sahibkarlıq subyektlərinin yerli və xarici bazarlara çıxışının təmin edilməsi, bacarıqlı və ixtisaslı kadr təminatının yaradılması atılmalı olan vacib addımlardandır.

Regionda və dünyada iqtisadi sahədə gedən proseslər KOS subyektlərinin sahibkarlıq subyektləri ilə kooperasiyasının dərinləşdirilməsini və dövlət dəstəyinin artırılmasını bir daha önə çəkir. Bu bax;mdan sahibkarlıq siyasətinə dair vahid yanaşmanın, innovasiyaların, beynəlxalq standartların daha geniş tətbiqi, ixrac bazarlarının araşdırılmasında dövlət dəstəyinin artırılması; maliyyə, konsaltinq və digər dəstək mexanizmlərinin daha da genişləndirilməsi, dövlətin dəstək alətləri üçün monitorinq və qiymətləndirmə mexanizmlərinin yaradılması üçün prioritetlər müəyyənləşdirilməli və ölkədə sahibkarlığın inkişafı ciddi dəstəklənməlidir.

Azərbaycanda KOS-un inkişafı kifayət qədər ciddi məsələdir. Bunun üçün makroiqtisadi siyasətdən başlayaraq, sahibkarların və əlaqəli dövlət məmurlarının məsələyə baxış tərzinə qədər bir çox işləri özündə ehtiva edən və aydın hədəflərə istiqamətlənmiş tədbirlərin həyata keçirilməsi tələb olunur. Buna görə də KOS-un inkişafına dəstək verən institusional dəyişikliklərin həyata keçirilməsi və onların inkişafı üçün əlverişli şəraitin yaradılması strateji əhəmiyyət kəsb edir.

Azərbaycanın 2025-ci ilədək olan dövr üçün uzunmüddətli baxışı KOS subyektlərinin rəqabət qabiliyyətinin daha da artırılmasına, gündəlik istehlak malları ilə təminatın əsasən KOS subyektləri vasitəsilə həyata keçirilməsinə, KOS subyektlərinin ÜDM və məşğulluqda payının əhəmiyyətli dərəcədə artırılmasına nail olmaqdır. Azərbaycanda biznes mühitinin daha da yaxşılaşdırılması, maliyyə resurslarına və beynəlxalq bazarlara çıxış imkanlarının artırılması, eləcə də innovativ yanaşmanın bütün əlaqəli sahələrdə tətbiqi KOS subyektlərinin inkişafı üçün əlverişli şərait yaradar ki, bununla da Azərbaycanda KOS subyektlərinin qeyri-neft sektorundakı payı və yüksək gəlir gətirən sektorlarda məşğulluq imkanları artar.

2025-ci ilədək olan dövrdə KOS-un gücləndirilməsi sayəsində Azərbaycanın iqtisadi potensialı daha da artacaqdır ki, bunun da nəticəsində ölkədə rəqabət mühiti tam təmin olunacaq və beləliklə, Azərbaycan həm yerli, həm də xarici investorlar üçün dünyanın ən əlverişli ölkələrindən birinə çevriləcəkdir.

Azərbaycanda 2025-ci ilədək olan dövr üzrə uzunmüddətli baxışın həyata keçirilməsi nəticəsində KOS-un ÜDM-də və məşğulluqda payının müvafiq olaraq 35 və 40 faizə, ölkənin qeyri-neft ixracında payının isə 25 faizə çatdırılması nəzərdə tutulur.

Hesab edirəm ki, 2025-ci ildə Azərbaycan əlverişli rəqabət mühitinə sahib olan, dövlət-özəl tərəfdaşlığının yeni mərhələsinə qədəm qoymuş, yüksəkixtisaslı kadr potensialı və daim inkişaf edən qeyri-neft sektoru olan bir dövlətə çevriləcəkdir. KOS subyektlərinin sayının və dayanıqlılığının artması ilə onların qlobal dəyər zəncirlərində rolunun genişlənməsinə, intellektual dəyərlərin formalaşmasında iştirakına və daha çox gəlir əldə etməsinə nail olunacaqdır.

Nəzərdə tutulan hədəflərin reallaşdırılması Azərbaycanda biznes üçün daha əlverişli şəraitin yaradılması, KOS-un inkişafına ünvanlanmış müxtəlif proqram və layihələrin həyata keçirilməsi, aidiyyəti dövlət qurumlarının iştirakı və səyi, xüsusilə də zəruri proseslərin sadələşdirilməsi və şəffaflığının təmin edilməsi sayəsində mümkün olacaqdır.

Ədəbiyyat:

1. Azərbaycan Respublikasında kiçik və orta sahibkarlıq səviyyəsində istehlak mallarının istehsalına dair Strateji Yol Xəritəsi. 6 dekabr 2016-cı il
2. Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər. Azərbaycan Respublikası Prezidentinin2021-ci il 2 fevral tarixli Sərəncamı ilə təsdiq edilmişdir.
3. Musayev V.R., Seyfullayev İ.Z. Sahibkarlığın əsasları. Bakı. 2013, - 382 səh.
4. Azərbaycanda sahibkarlığın inkişafına zəmin yaratmış Milli Qurtuluş Günü. URL: https://www.azerbaijan-news.az/az/posts/detail/azerbaycanda-sahibkarligin-inkisafina-zemin-yaratmis-milli-qurtulus-gunu-1655250788
5. Musayev M. Sahibkarlar səmərəli fəaliyyət üçün bütün imkanları əldə ediblər. Maliyyə və uçot. 2015. №10. S.25-31. URL: https://www.elibrary.az/docs/jurnal/jrn2015_771.htm
6. Kiçik və orta sahibkarlığın inkişafı: Real vəziyyət və perspektivlər. URL: https://www.yeniazerbaycan.com/SonXeber_e89284_az.html